BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2007*

# XVIII ƏSRİN BİRİNCİ RÜBÜNDƏ İRƏVAN ƏYALƏTİNDƏ OSMANLI İMPERİYASININ AQRAR SİYASƏTİ

**S.S.RƏHİMOVA**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

Məlum olduğu kimi, XVIII əsrin əvvəllərində Səfəvi dövlətində güclənən mərkəzdənqaçma meylləri onun xarici siyasətində də uğursuzluqlarına yol açır. Bu vəziyyətdən istifadə edən Osmanlı imperiyası Səfəvi dövlətinin şimal-qərb bölgəsinin böyük bir hissəsini ələ keçirir; bundan sonra həmin bölgələrdə Osmanlı inzibati və iqtisadi sisteminin tətbiqi də başlayır.

Mənbələrin verdiyi məlumatlar və bəzi tədqiqatların nəticələrindən məlum etmək olar ki, XVIII yüzillikdə Osmanlı imperiyasının iqtisadi siyasət prinsipləri demək olar ki, dəyişməz qalmış, lakin bu siyasətin yeni metodları meydana çıxmışdı. Söhbət ilk növbədə təsərrüfatın idarə olunması və vergi yığımındakı yeni üsullardan gedir. Bu, aqrar sektorda daha güclü hiss olunurdu: kənd əhalisindən alınan vergilərin kəskin şəkildə ixtisarı və hökumətin vergilərin bir hissəsini cəmiyyətin digər təbəqələri üzərinə qoymağa məcbur etməsi də elə bundan irəli gəlirdi. Aqrar sektorda əsas dəyişiklik isə torpaq istifadəsi formalarında təzahür edirdi.

XV-XVI əsrlərdə Osmanlı cəmiyyətinin aqrar strukturunun ən mühüm elementi, heç şübhəsiz, timar sistemi idi ki, bu da müsəlman dünyasında iqta təsisatının Osmanlı variantı kimi qəbul edilir. Timar torpaq sahibliyi yarandığı ilk dövrdən hərblə sıx bağlı olduğundan (timar-sipahilərə verilən şərti torpaq mülkiyyəti idi), hökuməti yeni-yeni fəthlərə sövq edirdi. Bir tərəfdən, xəzinənin böyük bir hissəsinin hərbə xərclənməsi, digər tərəfdən, bir-birini əvəz edən xarici siyasi uyğunsuzluqlar imperiyada iqtisadi durğunluq yaradırdı. İllik gəliri 20 min axçadan aşağı olan timarların istifadəçiləri–sipahilər, demək olar ki, heç bir imtiyaza malik deyildilər və təbəqənin ən aşağı pilləsində dururdular. Sayca azlıq təşkil edən iri feodallar isə illik gəliri 20-100 min axça olan zeamət və illik gəliri 100 min axçadan artıq olan xass torpaqların istifadəçiləri idi. Onlar timarçılardan fərqli olaraq hərbi, inzibati və qismən məhkəmə immunitetinə malik olurdular. Şərti torpaq mülkiyyətinin bu cür strukturu ali feodalların xidməti torpaqlarının xüsusi malikanəyə çevrilməsinə şərait yaradırdı, timarların isə, əksinə, defeodallaşmasına gətirib çıxarırdı (6, s.19).

Hərbi –len sisteminin dağılması prosesi artıq XXI əsrin II yarısı çox ağır gedirdi. İri feodallar hökumətin düşmüş olduğu çətin vəziyyətdən öz məqsədləri üçün istifadə edərək xidməti xassları əllərinə

keçirib onları şərtsiz torpaq mülkiyyətinə çevririrdilər. Bu feodallar kəndlilərin istifadəsində olan torpaq payları hesabına da malikanələrini genişləndirirdilər. Belə malikanələrdə isə məhsuldarlığın intensiv artımı mümkün olmurdu, çünki kəndlilərin bu prosesdə heç bir marağı qalmamışdı.

Paradoksal hal onda idi ki, bu sistemin dağılmasında hökumət özü də dolayı yolla iştirak edirdi. Belə ki, maliyyə çətinliklərindən xilas olmağa çalışan Osmanlı hökuməti sipahi torpaqlarından alınan vergiləri icarəyə-iltizama verməyə başlayır (10, s. 212-214).[*]

Yeni aqrar qaydalar, bir tərəfdən kəndlilərlə torpaq sahibləri, digər tərəfdən torpaq sahibləri ilə dövlət arasında münasibətləri dəyişməli idi. Torpaqdan şərti istifadə forması olmasına baxmayaraq, iltizam hərbi xidmətlə əlaqəli deyildi. İcarədarlar – mültəzimlər çox zaman tacir və sələmçilərin içərisindən çıxırdılar, nəticədə osmanlı aqrar strukturunda sələmçilər, tacirlər və məmurlar timarçıları və zaimləri (zeamet istifadəçilərini) əvəz etməyə başlamışdı. Mültəzimlər kəndlilərin əlində cəmlənmiş kapitalın bir hissəsinin kənd təsərrüfatına axmasına, dövlət torpaqlarının alqı-satqı, bağışlama, girovqoyma obyektinə çevirməsinə şərait yaradırdı. Bu isə Osmanlı imperiyasının aqrar sektorunda xüsusi mülkiyyətin inkişafı demək idi. Lakin bu, yuxarıda deyildiyi kimi, kənd təsərrüfatında intensiv inkişaf üçün şərait yaratmırdı. Xüsusi mülkiyyətin genişlənməsi osmanlı variantında feodal istismarının artması, biyarın bərpası və s. neqativ hallarla müşayiət olunurdu.

Osmanlı imperiyasının ayrı-ayrı bölgələrinin qeyri-bərabər inkişafı iltizam sisteminin ümumi cəhətlərini müəyyən etməyə çətinlik törədir. Lakin bununla bərabər, imperiyanın ucqar bölgələrində, konkret XVI əsrin sonu –XVII əsrin əvvəllərində və XVIII əsrin 20-30-cu illərində Osmanlı hakimiyyəti altında olmuş İrəvan əyalətində bu sistemin ilkin xüsusiyyətlərini işləmək mümkündür. Belə ki, 1728-ci ildə tərtib olunmuş «İrəvan əyalətinin icmal dəftəri»nə görə (bax:1), İrəvan əyalətində miri ərazinin dirlikləri xass, zeamet və timar formaları ilə təmsil olunmuşdu. Naxçıvan sancağı da daxil olmaqla ( gəlirinin 94,1%-nin sultan və mirmiran xasslarına aid olan və timar sisteminin demək olar ki, işləmədiyi Naxçıvan sancağı üçün xüsusi bir icmal dəftərinin hazırlanmasına ehtiyac yox idi. Bax: 1,s.10) İrəvan əyalətinin gəlirinin 73,3%-i sutan xasslarının (xasshayıhumayin) payına düşürdü (1, s.27). Ümumilikdə isə, əyalətin illik gəlirində xassların gəlirinin xüsusi çəkisi 79,2% idi (1,s.27). Bu xassların istifadəçiləri əyalət və iri vilayətlərin – sancaqların hakimləri, həmçinin bəzi ali hökumət məmurları (dəfdərlar, nişançılar və b.) idi.

Yuxarıda qeyd etdiyimiz proseslər – sipahi sisteminin tənəzzülü dirliklərin, xüsusilə xassların şərtiliyinin ləğvi uğrunda mübarizənin yekununu da müxtəlif edirdi. Hələ XVII əsrin birinci yarısında maliyyə məmuru Mustafa Koçubəy yazırdı: «Timarlar və zeametlər əyanların qurbanı oldu» (9, s. 123-124). Əlbəttə, sipahi sisteminin süqutunun təzahürü kimi iri feodalların əlində torpaq fondunun cəmlənməsi yeganə amil deyildi, burada timarların özünün qeyri-rentabelliyi də böyük rol

[*] Hələ XVI yüzilliyin sonu hökumət dövlət torpaqlarını iltizama verməyə başlamışdı; lakin bu gəlir çox böyük olmadığından, torpaq mülkiyyətinin digər kateqoriyaları, ilk növbədə timarlar iltizam sisteminə cəlb olunur.

oynamışdı ki, bu barədə aşağıda deyiləcək.

İllik gəliri 20-27 min axça arasında olan zeametlər İrəvan əyalətində nahiyələr üzrə aşağıdakı şəkildə bölünmüşdür:

| NAHİYƏ | ZEAMETLƏRİN | GƏLİRİ |
|---|---|---|
| Qırxbulaq | 1 | 20 min axça |
| Karbi | 10 | Ümumi – 225 min axça |
| Karni | 1 | 20 min axça |
| Vedi | 1 | 20 min axça |
| Abaran | 1 | 23,3 min axça |
| Dərəçiçək | 1 | 27 min axça |
| Sürəgəl | 1 | 20 min axça |

(bax: 1, s. 77-115)

Burada nəzərə çarpan mühüm bir fakt ondan ibarətdir ki, İrəvan əyalətindəki zeametlərin gəliri 30 min axçadan yuxarı deyildi, yəni minimum həddi demək olar ki, keçməmişdi. Bu fakt bir daha timar sisteminin effektsizliyini və XVIII yüzillikdə artıq qeyri-rentabelli sistemə çevrildiyini sübut edir. Bu özünü birbaşa timarların gəlirinin aşağı düşməsində də göstərir. Osmanlı tarixinin görkəmli tədqiqatçılarından olan M.S.Meyerin hesablamalarına görə, XVI-XVII əsrlərdə imperiyada bir evin qiyməti 1-4 min axça, bir qulun qiyməti yenə o qədər, bir atın qiyməti 0,8-0,9 min axça olmuşdur (6, s. 20). İndi isə İrəvan əyalətinin materialları əsasında timarın verdiyi gəlirlərə nəzər yetirək:

| NAHİYƏ | Maksimum gəlir gətirən TİMAR | Minimum gəlir gətirən TİMAR |
|---|---|---|
| Qırxbulaq | 14 min axça | 1 min axça |
| Karbi | 18 min axça | 1 min axça |
| Karni | 14 min axça | 1 min axça |
| Vedi | 14 min axça | 1 min axça |
| Abaran | 12 min axça | 1500 axça |
| Dərəçiçək | 11.520 axça | 3 min axça |

(bax: 1, s. 77-119)

İrəvan əyalətinin adı çəkilən nahiyələrində timarların orta gəliri isə 3 min-12 min axça arasında idi. Bu rəqəmləri yuxarıda göstərilən rəqəmlərlə (M.S.Meyerin hesablamaları ilə) müqayisə edəndə, belə nəticəyə gəlmək olur ki, timar öz istifadəçisinə çox aşağı yaşayış minimumunu təmin edirdi. Üstəlik, nəzərə alsaq ki, XVII əsrdə axçanın dəyəri də 2-2,5 dəfə aşağı düşmüşdü (6, s.20), onda sipahilərin maddi vəziyyətlərinin nə dərəcədə olması tam aydınlaşır.

Baxmayaraq ki, İrəvan əyalətində timarlar 534 kəndi (Naxçıvan sancağı daxil olmaqla), 60 məzrəəni,[1] 8 qışlağı və 5 məhəlləni əhatə edirdi (1, s.28), onların illik gəlirinin ümumi həcmi 2.222.895 axçaya bərabər idi (1, s. 28; həmçinin bax; yenə orada, s. 77-119). 1728-ci ilə aid olan «İrəvan əyalətinin icmal dəftəri»nin tərcüməçiləri və araşdırmaçıları akad. Z.M.Bünyadov və H.Məmmədovun qeyd etdikləri kimi, əyalətdəki dirliklərin (istər xass, istərsə də zeamet və timarların) gəlirinin əsasını kənd təsərrüfatının ayrı-ayrı sahələri təşkil etmişdir (1, s 28-29). Ayrıca olaraq sultan xasslarının gəlirini isə bütün əyalət və

[1] Məzrəə – sakinləri olmayan kəndlərin əkin sahələri.

onun şəhərlərindəki istehsal obyektləri ilə bərabər, bazar və gömrük rüsumları, yardarlıq bacları da təmin edirdi (1,s.29).

Timarların az gəlirli olması, xass torpaqlarının sayca və gəlirlik baxımından üstünlük qazanması Osmanlı imperiyasının bütün ərazilərində olduğu kimi, İrəvan əyalətində də ictimai-hüquqi münasibətlərin yerinə xüsusi hüquq və xüsusi mülkiyyətin inkişafı üçün şərait yaradırdı. Məqalənin əvvəlində qeyd etdiyimiz iltizam sistemi ilə yanaşı, Osmanlı imperiyasında çiftlik sistemi də yeni aqrar quruluşun bir variantına çevrilmişdi. Çiftlik –faktiki xüsusi malikanə olub, muzdlu əməkdən istifadəyə əsaslanırdı. İlk çiftliklərin meydana çıxması XVI əsrin ikinci yarısına təsadüf edir (2, s. 37-44; 6, s. 24). Çiftliklərin yaranma şəraiti hər bölgə üçün fərqli olsa da, əsas ümumi cəhət yuxarıda qeyd etdiyimiz proses - feodalların dövlət torpaqlarını qeyri-qanuni ələ keçirmələri, kəndlilərin torpaq hüququndan məhrum edilməsi və onların yardarlara çevrilməsi sayılmalıdır. Maraqlıdır ki, çiftliklər iri şəhərlərlə sıx bağlı olan nahiyələrdə daha geniş yayılmışdı (6, s.25). Məsələ burasındadır ki, çiftliklər əmtəə təsərrüfatları idi, iri şəhərlər isə kənd təsərrüfatı məhsullarının sabit istehlakçısı olub, çiftlik məhsulları üçün ixracata yol açırdı.

XVII əsrin sonu, yəni Osmanlı imperiyasında hərbi-len sistemi tamamilə tənəzzülə uğrayanda, çiftliklərin formalaşması sürətlənir və geniş miqyas alır. İri xüsusi torpaq sahibkarlığının geniş yayıldığı bölgələrdə kənd təsərrüfatı istehsalının əmtəəliyi artır. Nəzərdən keçirdiyimiz mənbədə – «İrəvan əyalətinin icmal dəftəri»ndə bu proses öz əksinə birbaşa tapmasa da, tam əminliklə qeyd etmək olar ki, timarların çox aşağı gəlirlilik dərəcəsi, xassların isə əksinə həm rentabellik baxımından, həm istifadəçisinə verilən hərbi, inzibati, məhkəmə imtiyazları baxımından əlverişliliyi aqrar münasibətlərin təkamülünü şərtləndirirdi. Doğrudur, adı çəkilən əyalətdə timarlar sayca zeametlərdən çox idilər (471 timar - 16 zeamet), lakin sultan xasslarının sayca və gəlirlilik dərəcəsinə görə daha çox olması aqrar münasibətlərdəki meyli açıq-aşkar göstərir: timar sistemi tənəzzül içində idi və icmal dəftərilə müəyyən edilmiş dirliklər dövlət tərəfindən iltizama verilməyə başlamışdı. Əslində «İrəvan əyalətinin icmal dəftəri»nin tərtibi də elə bu ərəfəyə təsadüf edir (1, s.27). Fikrimizi əsaslandırmaq üçün yenə rəqəmlərə müraciət edək. İrəvan əyalətinin gəlir obyektlərinin müqatiəsi aşağıdakılar idi:

| | |
|---|---|
| İrəvan gömrüyünün müqatiəsi | Gəliri: 1.320.000 axça |
| İrəvan əyalətinin sabunxana müqatiəsi | Gəliri: 84.000 axça |
| İrəvan əyalətinin boyaxana müqatiəsi | Gəliri: 84.000 |
| İrəvan şəhərinin dabbaqxana müqatiəsi | Gəliri: 36.000 |
| İrəvan şəhərinin şamxana müqatiəsi | Cəliri: 36.000 |
| İrəvan şəhərinin və Dəmirbulağın qəssabxana müqatiəsi | Gəliri: 60.000 |
| Zərbxana müqatiəsi | Gəliri: 40.000 |
| Pençik (?) müqatiəsi | Gəliri: 50.000 |
| İrəvan əyalətinin mizan müqatiəsi | Gəliri 420.000 axça |
| | Cəmi: 2.130.000 axça (bax: 1, s. 35) |

İrəvan əyalətindəki gəlir obyektlərinin cəmi 9 müqatiəsinin verdiyi 2.130.000 axça gəlirə qarşı 471 timarın (Naxçıvan sancağındakı timarları çıxmaq şərtilə) verdiyi gəlir cəmi 1.765.395 axça idi. Belə olan

halda sultan hökumətinin iltizam üsuluna üstünlük verməsi, gəlir mənbələrini müqatiəyə ayırması təbii hal sayılmalıdır.

Bəzi tarixçilər mültəzəmləri sadəcə vergi məmurları kimi qəbul edirlər ( məs., 3, s. 680). Lakin bu fikirlə razılaşmaq çətindir, çünki dövlət mültəzimlərə təkcə vergi yığmaq hüququnu deyil, icarə müddəti ərzində torpaq üzərində sahiblik hüququ da verirdi. Məhz bu hüquq mültəzəmlərə nəzarət etmək üçün hökumət xüsusi müfəttişlər ayırmışdı (6, s.23). Lakin nəzərə alsaq ki, artıq XVII əsrin sonlarından başlayaraq sultan hökuməti irsi iltizam sisteminə də keçir, şübhə yeri qalmaz ki, rəsmi hakimiyyətin iltizamlar üzərində nəzarəti tamamilə azalır və bu sonuncular malikanəyə çevrilir. Onlar, hətta XVII əsrin sonu - XVIII əsrdə elə belə də adlandırırdılar – «malikanə-yi divani» .

Lakin biz iltizam sisteminə keçirilməsi ilə Osmanlı aqrar strukturunda radikal dəyişikliklərin baş verməsini təsdiqləmək fikrində deyilik. Aydın məsələdir ki, bu kapitalizmlə bağlı proseslər deyildi – onların təsdiqlənməsi üçün yuxarıdan aparılan islahatlar kifayət etməzdi. İltizam sistemi sadəcə aqrar münasibətlərin təkamülünün qanunverici nəticəsi olub, artıq özünü tükətmiş olan feodal sisteminin son mərhələdə xilas cəhdi idi. Bəlkə də çiftliklər Osmanlı cəmiyyətinin feodalizmdən xilas olub kapitalist münasibətləri sisteminə daxil olmasına imkan yarada biləcək qüvvə kimi görünür; lakin çiftliklər nəinki iri mülkədar təsərrüfatlarına çevrilmədilər, üstəlik feodal özbaşınalığının mənbəyi oldular. Həm də iltizam sistemi çiftliklərin üstünlük qazanmasına imkan vermədi və məhz iltizam XVIII əsrdə «hakimiyyət və zənginliyin mənbəyi» olaraq qalır (6, s.28).

Torpaq münasibətlərindəki dəyişikliklər həm aşağı təbəqələrin, həm də sipahilərin vəziyyətinə birbaşa təsir göstərmiş oldu. İltizam sistemi ilk növbədə kəndlilərin, istismarını gücləndirdi; bu prosesdə belə bir amil də böyük rol oynadı ki, mültəzimlərin kəndlilərlə münasibətləri dövlət nəzarətindən kənar idi və bu, kəndliləri himayəsiz qoymuşdu. Vergilərin artması, sələmçi faizin yüksək olması mültəzimlərin özbaşınalığı kəndlilərin öz əməyinin nəticəsinə olan marağını heçə endirirdi. Sipahilərə gəlincə, imperiyadakı iqtisadi və maliyyə böhranı onların gəlirlərinin 2-3-dəfə aşağı düşməsinə (6, s.30), nəticədə istifadəçilərin timarlardan imtina etmələrinə gətirib çıxarmışdı.

Ümumilikdə, Osmanlı hökumətinin iqtisadi, eləcə də hərbi islahatları cəmiyyətin özünün XVII-XVIII yüzilliklərdə yaşadığı sosial-iqtisadi proseslərin miqyasına və dərinliyinə uyğun gəlmirdi, daha doğrusu, kifayət etmirdi. Digər tərəfdən, hökumət baş verən dəyişikliklərə çox gec reaksiya vermişdi və bu səbəbdən, görülən bütün tədbirlər müəyyən müsbət nəticələri versə də, yekunda bu nəticələr çox cüzi təsir buraxırdı. Bəlkə də bu səbəbdən, tarixçilər Osmanlı cəmiyyətinin XVIII əsrdəki vəziyyətini «struktur böhranı» kimi qəbul edirlər (6).

XVI əsrin sonu – XVII əsrin əvvəllərində və XVIII əsrin 20-30-cu illərində Osmanlı hakimiyyəti altında olmuş İrəvan əyalətinə gəlincə, onun sultan inzibati idarəçiliyinə və iqtisadi strukturuna süni şəkildə daxil edilməsi aşkardır. Sultan hökuməti işğal etdiyi yeni torpaqlarda təsərrüfat həyatının nizamlanması, sosial sahədə problemlərin aradan qaldırılması işinə çox az diqqət ayırırdı, dövlət məmurları daha çox özlərinin varlanmasına maraq göstərirdilər. Bu idarəçiliyin İrəvan əyalətinə vurduğu maddi ziyanın kəmiyyət dərəcəsini müəyyən etmək

çox çətindir (o cümlədən insan ehtiyatlarındakı itkini). Lakin «İrəvan əyalətinin icmal dəftəri»ndə (1728-ci il) əyalətin abad və heç kimin yaşamadığı kəndlərinin siyahısı verilir:

Abad olan kəndlər - 1.172

Heç kimin yaşamadığı kəndlər - 307

Zarzəmin nahiyəsi kəndləri – 172

(bax: 1, s.156; həmçinin müqayisə et: yenə orada, s.156, qeyd 4-6).

Zarzəmin nahiyəsindəki kəndlərin və qışlaqların heç biri abad deyildi. Bu rəqəmlər bizə açıq-aşkar göstərir ki, imperiyada aparılan tədbirlər məcmusu yenicə işğal olunan torpaqlarda da effektsiz idi. Osmanlı iqtisadi strukturunun İrəvan əyalətində (həmçinin Azərbaycanın fəth olunmuş digər bölgələrində) qısa ömrü bir tərəfdən onun bölgəyə yad olması, digər tərəfdən çox az bir müddət ərzində Osmanlı hakimiyyətində qalması ilə izah oluna bilər. İrəvan əyalətinin bu qısa dövr ərzində iqtisadi həyatı haqqında məlumatların kasadlığına baxmayaraq, belə bir nəticəyə gəlmək mümkündür ki, əyalətdə təsərrüfat həyatı əmtəə – pul münasibətlərinin inkişafı, xüsusi torpaq mülkiyyətinin genişləndirilməsi, kəndlilərin şəhərlə əmtəə əlaqələrinə girməsi üçün böyük imkanlara malik olmuşdur. Çünki ictimai həyatın bütün sahəsində dövlət nəzarətinin zəifləməsi daha fərdi münasibətlər, şəxsi təşəbbüs üçün yol açırdı. Bu mənada demək olar ki, artıq XVIII əsrdə əyalətin inkişafında mütərəqqi hadisələrin müəyyən rüşeymləri qoyulmuşdu.

Lakin Osmanlı aqrar strukturuna qaynayıb-qarışması üçün əyalətə xeyli uzun bir müddət tələb olunurdu. Digər tərəfdən, yeni qaydalara, yeni struktura qaynayıb-qarışmaq cəhdi ilə yanaşı, Azərbaycanın bu bölgəsində müqavimət göstərən istiqamət də var idi. Bu istiqamətin daşıyıcıları təkcə aşağı təbəqələrlə deyil, yerli feodallarla da təmsil olunmuşdu. Osmanlı imperiyasının hərbi-len sisteminin və bununla əlaqədar ordusunun zəifləməsi fəth olunmuş torpaqların tezliklə itiriləcəyindən xəbər verirdi. Bu qeyri-müəyyənlik də durğunluq üçün əsas yaradırdı: sahibkarlığa az-çox marağı olan mültəzimlər, çiftlik sahibləri təsərrüfatlarının aqibətindən xəbərsiz olduğundan, onun aparılmasına tədricən laqeydləşirdilər. Səfəvilərlə osmanlılar arasında bir neçə əsr davam etmiş üzücü müharibələr, xüsusilə İrəvan əyalətinin və həmçinin Azərbaycanın bir çox bölgəsinin Osmanlı hakimiyyətinə keçməsi isə iqtisadi strukturda sabit təkamülə mane olmuşdur. Təkamülün ləng tempi Osmanlı imperiyasının və Azərbaycanın Avropa ölkələrindən daha çox geri qalmasını, onlardan asılı vəziyyətə düşməsini şərtləndirmişdir.

## ƏDƏBİYYAT


1. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z.M.Bünyadov və H.Məmmədovdur. Bakı, 1996.
2. Akdağ M. Türk halkının dirlik və düzənlik kavğası. Ankara, 1975.
3. Yücel Y. Osmanlı imparatorluğunuda desantralizasiyona dair genel gözlemeler- Belleten. Ankara, 1974, cild 38, № 152.
4. Витол А.В. Османская империя ( начало XVIII века). Москва, 1987.
5. Желтяков А.Д. К вопросу об истоках просветительства в Османской империи – Культура народов Балкан в новое время. Балканские исследования. Вып. 6. Москва, 1980.
6. Мейер М.С. Османская империя в XVIII в. Черты структурного кризиса. Москва, 1991.

7. Орешкова С.Ф. Некоторые проблемы эволюции феодального землевладения в Османской империи ( вторая половина XVII начало XVIII вв.) – Проблемы новой и новейшей истории стран Запада и Востока. Сборник трудов Московского Государственного Педагогического института. Москва, 1975.
8. Смилянская И.М.Социально-экономическая структура стран Ближнего и Среднего Востока на рубеже нового времени. Москва, 1979.
9. Смирнов В.Д.Кочибей Гомюрджитнский и другие османские писатели XVII в. о причинах упадка Турции. Санкт-Петербург, 1873.
10. Цветкова Б. Откупная система в Османской империи в XVI-XVIII вв. – Известия Института правовых наук. Т.11, кн. 2, София, 1960.

## АГРАРНАЯ ПОЛИТИКА ОСМАНСКОЙ ИМПЕРИИ В ИРЕВАНСКОЙ ПРОВИНЦИИ В ПЕРВОЙ ЧЕТВЕРТИ XVIII ВЕКА

**С.С.РАГИМОВА**

### РЕЗЮМЕ

В статье исследуются некоторые вопросы эволюции аграрных отношений в Османской империи XVIII в.., в частности, причины противоречий тимарной системы землевладения, возникновения откупной системы - ильтизам и последствия этих процессов. Основное внимание уделено сведениям о Иреванском эйалете, находившегося в конце XVI – и в первой четверти XVIII вв., в составе Османской империи. Азербайджанские провинции, находившиеся под воздействием турецкой аграрной структуры, переживали социально-экономический спад, так как эта структура являлась для них чужой. Несмотря на это некоторые области сельского хозяйства Иреванского эйалета продолжали развиваться.

## THE AGRARİAN POLİCY OF THE OTTOMAN EMPİRE İN THE İREVAN PROVİNCE İN THE FİRST QUARTER OF THE XVİİİ CENTURY

**S.S.RAQİMOVA**

### SUMMARY

İn article it is investigated some questions of evolution of the agrarian terms in the Ottoman Empire in the XVIII century, in particular the reasons of contradictions of the timar systems of the landed property, occurrence ray off systems - iltizam, and consequences of these processes. The basic attention is given to the data about the İrevan province which taкing place in structure of the Ottoman Empire at the end of the XVI and in the first quarter of the XVIII centuries. The Azerbaijan provinces taкing place under influence of Turкish agrarian structure experienced social and economic recession as this structure was for them another's. Despite of it some areas of the agriculture in the İrevan province continued to develop.